Ədəbiyyat Qəzeti

*Boğazının altından sinəsinəcən qaramtıl zolaq uzanan Köysərək çiyinlərində qara dəmir gəzdirən məxluqları çox yaxşı tanıyırdı.*

**H.MİRƏLƏMOV. "Cəza"**

# NƏSRİMİZDƏ MƏNƏVİYYAT MƏSƏLƏLƏRİ, YAXUD SƏSİ UZAQLARA YAYILAN "CƏZA"

Bəli biz hiss etməsək də, onlar bizləri, çiynində dəmir gəzdirən, özündən zəif heyvanları göründə ona qənim kəsilən məxluqları yaxşı tanıyır.

"Cəza" povesti Hüseynbala Mirələmovun illər öncə yazdığı, lakin ədəbiyyat adamlarının yaxşı xatırladığı bir povestdir. Müasir dövr ədəbiyyatında povest janrına az müraciət edilsə də Hüseynbala Mirələmov yazdığı əsərlə janrın ən yaxşı nümunələrindən birini yaradıb desək, yanılmarıq. Ədəbiyyatşünaslığımızda bu əsər haqqında həm yazıldığı dövrdə, həm də sonralar kifayət qədər yazılar yazılıb, fikirlər söylənilib. Akademik Nizami Cəfərov onu "Azərbaycan nəsrinə məxsus ən möhtəşəm əsər"lərdən biri adlandırıb. İslam Qəribli "Cəza"nı "ətraf mühit, ekologiya və mənəviyyyat, təbiət və insan problemlərinə həsr edilmiş ən aktual əsərlərdən biri" kimi qiymətləndirib. Həqiqətən də povest təbiətlə insan arasındakı qarşıdurmanın əks etdirildiyi azsaylı əsərlərdəndir. "Cəza" müasir həyatımızın, deqradasiyaya uğramış dünyamızın ən aktual problemlərindən biri olan təbiətin insan əli ilə məhv edilməsi məsələsinin qabardıldığı, bu gedişatın acı nəticələrinin çox uzaq gələcəkdə olmayacağını gözlər önünə sərən bir mətndir. Nizami Cəfərovun təbirincə desək, bu əsəri yazmaqla Hüseynbala Mirələmovun "yalnız bir yazıçı deyil, bir cəmiyyətşünas - mütəfəkkir kimi də irəli getdiyini" vurğulaya bilərik.

Hüseynbala Mirələmov "Cəza" povestində insanlarla təbiətin ən məğrur canlılarından olan canavarlar arasında gedən mübarizədən bəhs edir, lakin diqqət çəkən cəhət müəllifin insanların deyil, təbiətin, onun canlı parçasının tərəfindən çıxış etməsidir. Akademik Bəkir Nəbiyev "Cəza"nı yüksək dəyərləndirərək yazır: "Partladılaraq kökündən qoparılan hər bir nəhəng palıd ağacının, namərd gülləsi ilə qanına boyanan hər bir körpə heyvanın, nadan münasibətlər nəticəsində itib-batan hər bir bulağın taleyi yazıçı qəlbinin dərinliklərinə nüfuz edir və bu hadisələrin bədii təsviri oxucuya da sarsıdıcı təsir göstərir, bununla da, hamını ekoloji düşmənlərimizə qarşı mübarizədə birləşməyə, prinsipial olmağa səfərbər edir".

"Cəza" povesti məhz bu qarşıdurma üzərində qurulub: bir-birinə qış qıcadan, gördüyü yerdəcə qənim kəsilib "ovu"nu məhv etməyə hazır iki varlıq üz-üzə gəlir. Düzdür, müəllif hər nə qədər hər iki tərəfi ayrı-ayrılıqda təsvir etməyə, bitərəf qalmağa çalışsa da sonda təbiətə qənim kəsilən insanlara qarşı münasibətini gizlətmədən mövqeyini bəlli edir.

Fikrimizcə, əsərin "başı qarlı sıldırım dağların gömgöy ətəklərində - moruq, qaragat kollarının, kükünar, palıd, vələs, fıstıq və cökə ağaclarının bol olduğu meşədə" yaşayan canavar ailələrinin təsviri ilə başlaması təsadüfi deyil. Zəngin təbiət lövhələri, canavar ailələrinin həyat şəraitinin təsviri ilə müəllif sanki insan əli dəymədən bu həyatın hər kəs üçün daha yaşana bilər olduğunu vurğulamaq istəyir. Canavar sürülərinin timsalında bu reallığı daha kəskin ifadə edən yazıçı insan və təbiəti qarşılaşdırmaqdan, təbiətin hər nə olursa olsun insandan daha güclü olduğunu vurğulamaqdan çəkinmir. Biz bu münasibəti, deməli olar ki hər səhifədə, hər cümlədə aydın görə bilirik.



**Nərmin CAHANGİRLİ**
*filologiya üzrə fəlsəfə doktoru*

"Cəza" ilk səhifələrdə təbiətdəki qida zəncirinin təsvirinə hər olunmuş əsər təsiri bağışlasa da, əslində, müəllif daha vacib məsələlərə diqqət çəkmək istəyir. Canavar balalarının ilk ovlarından bəhs edilən məqamlarda bir çox heyvanların dar məqamdakı davranışlarını, xislətinin açıldığını görürük. "Lakin yaşamaq-həyatda qalmaq üçün bütün bunlar az idi; çətin və amansız döyüşlərdə əldə olunacaq təcrübəyə ehiyac var idi. Bu isə sonralar qazanılacaqdı. Canavar balaları əliklərin dar məqamda öz balalarını ölümün pəncəsində qoyub qaçdıqlarını, yaralı marallarn iri, geniş burun pərənlərindən buğ çıxaçıxa qar içində necə can verdiklərini, üç yandan bənd-bərəsi kəsilmiş vəhşi atların dibi görünməyən uçurumun başında vahimədən və çarəsizlikdən necə kişnədiklərini, gücsüzlərin güclülər önündə qismətlərindən necə əl çəkdiklərini hələ görməmişdilər, necə deyərlər, naşı idilər, hətta o dərəcədə naşı idilər ki, adicə bulud kölgəsi ilə qartal kölgəsini bir-birindən ayırd edə bilmirdilər".

Həyatda qalmaq üçün daim mübarizə aparmalı olan bu ürkək kiçik canlılar getdikcə mərd, qorxmaz yalquzaqlara çevrildikcə onlara münasibət də dəyişir. Canavarlar onlara toxunmayan, onları incitməyən insanlara qarşı yırtıcılıq etmir. Povesti oxuduqca canavar sürülərinin çox yaxşı müşahidə olunduğunu, ov həyatının bir çox məqamlarının nəzərə alınaraq yazıldığını söyləyə bilərik. Xüsusən də, canavarların ov səhnələri olduqca inandırıcıdır.

Tumaslar və Qanıqlar adlı canavar nəslinin öz balaları üçün ova çıxmaları və bu zaman balalarının çoxunun bəbir tərəfindən ovlanması ilə başlayan əsər həyatda qalmış iki canavar balasının - povestin əsas qəhrəmanlarının həyat hekayəsi ilə davam edir. Müəllifin Köysərək və Ayçən adını verdiyi bu yalquzaqlar əsərin sonuna qədər yaşamaq, sağ qalmaq, övladlarını xilas etmək uğrunda mübarizə aparırlar.

Dünya ədəbiyyatda da insan xislətinin açılmasında ən çox isifadə olunan canlılardan biri canavarlardır. Çingiz Aytmatovun "Qiyamət", Cek Londonun "Əcdadların harayı", "Bəyaz diş" kimi dünyaca məşhur əsərləri var ki, əsər bütünlükdə bu canlıların yaşam mübarizəsi üzərində qurulub. Bu şöhrətli yazarların məhz yalquzaqları seçməsi, əsəri onların həyat eşqi, yaşamaq, mübarizə apararaq sağ qalmaq, həm də sadəcə canını deyil, mərdliyini, qürurunu qoruyaraq sağ qalmaq fəlsəfisi üzərində qurması olduqca maraqlıdır. Sanki qəflət yuxusuna dalan, məhvə sürüklənən cəmiyyəti xilas etmək məhz bu canlıların üzərinə düşür.

Köysörək və Ayçən özlərindən əvvəlki nəslin davamçıları olmaqla yanaşı əsərdə, həmçinin, insan əli məhvə sürüklənən meşəliyin ən son sakinləri kimi diqqəti cəlb edir:"Meşələr doğrandıqca, canavarlar öz yurd-yuvalarından qaçaq düşüb, ağacsız, çılpaq dağlara sarı qalxırdılar. Onlar yeni məskənlərində səksəkə və qorxu içində dolaşır, xırdaca kolların arxasında daldalanır, mizantərəzi pozulduğundan, tez-tez bir-biri ilə boğuşurdular".

Öyrəşdikləri yerlərdən ən uzaq düşərək həyatda qalmağa çalışan, bu məqsədlə mübarizədən çəkinməyən yalquzaqlar insanda rəğbət hissi oyadır. Xüsusən də, Köysörəyin sona qədər dayanması, sağ qalan bircə balasını ölümə tərk etməmək üçün özünü güdaza verməməsi, nə olursa olsun Ayçəni axtarıb tapması və məqsədinə nail olması insanda ümid hissi oyadır, həyatın çətinlikləri qarşısında tab gətirməyi, heç zaman ümidi üzməməyi təlqin edir.

"Cəza" əsəri bir neçə dilə tərcümə edilib. Hər dildə də oxucularını tapıb. Povestlə bağlı biri-birindən dəyərli fikirlər səslədirilib. Bu fikirlər "Cəza"nın həm bədii-estetik məziyyətlərinin açılmasında, həm də ideyamənəvi tərəflərinin ədəbi müstəvidə dərkinin tapılmasında böyük rol oynayır. Məsələn, İlknur Zeybek adlı türk oxucusu "Cəza"nı - təbiətin intiqamını hədsiz qiymətləndirərək yazır: "Bu qədər gözəl bir kitabın duyulmamasına hədsiz təəssüfləndim. Kitab maraqlıdır, "bu mövzudadır" demək əvəzinə açıq bildirmək istəyirəm ki, oxuyun və digərlərinə də oxudun. O qədər bəyəndim, təsirləndim ki... Hönkür-hönkür ağladığım səhifələr oldu. Hətta kitabı çərçivəyə salıb otağıma asmaq istəyirəm. Mətbuatda çox təsadüf etdiyimiz "ova gedərkən ovlandı, ovçu özünü yaraladı və ya vurmağa çalşdığı ayı ovçunu əzişdirib komaya saldı" xəbərləri sizi sevindirirsə, bu kitabı çox bəyənəcəksiz. İdman üçün, əylənmək, vaxt keçirmək üçün ovçuluq edən insanlara da oxutdurmaq lazımdır. Bəlkə utanarlar.. Ürəklərində bir zərrə də olsa insanlıq qalıbsa, ortaya çıxar, əməllərindən əl çəkərlər".

Povestdə bu canavarlarla yanaşı düşüncə və davranışları ilə təbiəti məhv edən insanların həyatından bəhs edilən ikinci süjet xətti var. Əsər bu iki süjet xətti üzrə inkişaf etsə də, müəyyən hissədə xətlərin bir nöqtədə kəsişdiyi müşahidə edilir. Sıla adlı digər türk oxucusu yazır: "Cəza" Hüseynbala Mirələmovun təsadüfən alıb oxuduğum bir kitabdır. Cek Londonun "Əcdadların harayı" mövzusunda bir əsərdir. Kitabımızın qəhrəmanları Köysörək və Ayçən adlı uşaqlığı birlikdə keçən canavarlardır. Bir tərəfdə açlıqla mübarizə aparan, balalarını və Ayçəni doyurmaq üçün insanların yanına qədər getməyi gözə alan Köysərək , digər tərəfdə uşağının və arvadının ehtiyaclarını təmin etmək üçün canavar balalarını ələ keçirib satacaq qədər qəddar Qasım..."

Özünü təbiətin hakimi hiss edən digər canlıların - insanların hekayəsi də maraqlı detalları ilə yadda qalır. Ağalələ və Tülkü



Qasımın simasında biz insanların qəddarlığının şahidi oluruq. "Palıdlı" restoranını işlədən Ağalələyə yarınmaq, yaxşı müştəri cəlb etmək üçün meşənin quşlarını, heyvanlarını süfrəyə düzən Tülkü Qasım əsərin ən qəddar, mənfəətpərəst obrazı olmaqla yanaşı həm də hiyləgərdir. Qasım meşədə gəzişən canavarları göründə "bir güllə ilə iki quş vurmaq" məqsədi ilə plan hazırlayır, alıcı taparaq onların balalarını tutub satmağı, dişi canavarı isə restoranda qəfəsə salmaqla daha çox müştəri cəlb etməyi, bu yolla da Ağalələnin etimadını qazanmağı arzulayır. Təəssüf ki, Qasım planladığının bir hissəsini həyata keçirir, bu hissələrdə biz insanların necə qəddar ola biləcəyini Ayçənin və Köysərəyin baxışı ilə görə bilirik. Yuvaya tüstü verərək ana canavarı çölə çıxmağa məcbur edən əli silahlı məxluqlar nəticədə Ayçəni tuta bilir, balaları isə tüstüdə boğulur. "Köysörək yuvalarından çox da uzaqda olmayan qara qayanın üstündə dayanıb bədheybət , zalım, insafsız məxluqların törətdikləri əməllərə tamaşa edirdi. Onun ulartısı sanki qeybə çəkilmişdi. Özü də təəccüb və heyrətdən yerində donub qalmışdı. Bu ağılagəlməz əzazillik və qəddarlıq nitqini tamam batırmışdı..."

Ədəbiyyat QƏZETİ

Müəllif bəzi məqamlarda Tülkü Qasımın hərəkətlərini əsaslandırmğa çalışsa, ailəsi, oğlunu daha yaxşı yaşada bilmək üçün bu yola əl atdığını təkrarlasa da bunlar Qasıma haqq qazandırmağa yetmir. Biz Tülkü Qasımın ara-sıra əməlindən peşman olduğunu görsək də canavar balaları üçün alacağı yüzlüklərin bu hissdən, insanlıqdan daha güclü olduğunu görürük. Ağaləlo və Tülkü Qasım təkcə heyvanlara deyil, meşəyə, bulağa - demək olar ki bütün təbiətə qənim kəsilmiş kimi təsvir edilib. Daha çox pul qazanmaq, yüksək təbəqəli insanlarla yaxınlıq etmək üçün təbiəti məhvə sürükləyən bu həris insanlar olduqca tünd boyalarla təqdim olunub. Meşənin qədim ağaclarından parket sexində xammal kimi istifadə etmək üçün Ağaləlo meşəni qırdırır və nəticədə "Palıdlı" restoranından azca yuxarıda, budaqlarında quşların yuva qurduğu nəhəng palıd ağacının ətrafındakı bir hektara yaxın sahədə ucdantutma doğranmış ağacların kötükləri şər qarışanda başdaşları əyilmiş, kimsəsiz, qədim məzarlığı xatırladırdı".

Minillik yolunu dəyişib sal qayanın üstündən axmağa başlayan Çınqıllı bulaqdan qonaqlarını təəccübləndirmək üçün istifadə edən bu insanlar etdikləri əməllərin səhv olduğunu anlamamaqla yanaşı "camaat dəvəni dəng ilə yeyir... heç səsi də çıxmır", - deməklə hələ özlərinə haqq da qazandırırlar.

Əsər çox məntiqli bir formada nəticələnir. Tülkü Qasım və Ağaləlinin uğrunda hər şeyi fəda etdiyi "Palıdlı restoranı" elə onların axırına çıxdığı yer olur. Müəllif ciddi-cəhdlə təbiətin özü istəmədikcə insanın ona yenə bilməyəcəyini, heç nə ilə qarşısında dayana bilməyəcəyini göstərir. Addım-addım məhvə sürüklənən təbiət bunu bağışlamır, gözü dönmüş insanları dayandırmaq üçün öz gücünü göstərir və güclü sel Qasım, Ağaləlo daxil olmaqla təbiəti məhv edən hər kəsi öz ağuşuna almaqla inrtiqamını alır. "Elə bu vaxt Köysərək, Börü və güclü selin zərb ilə çevirdiyi dəmir qəfəsdən çıxan-xilas olan Ayçən baş daşlarını xatırladan kötüklərin arası ilə üzü dağlara sarı qaçırdılar. Onlar bir dikdirdə dayandılar və geriyə baxdılar. Aşağıda nəhəng göl, gölün düz ortasında isə tək-tənha palıd ağacından başqa heç nə görsənmirdi". Beləliklə də haqq öz yerini tapır, insanları nəfsinin qurbanına çevirməklə sanki bir həyat dərsi verir. Əsər məhz bu səhnəsi ilə insanları qəflətdən ayılmağa, pul, var dövlət, şan-şöhrət hərisliyinin bu həyatda qalmaq üçün kifayət etməyəcəyini, ana təbiətin ən güclü olduğunu nəzərə çatdırır.

"Cəza" povesti ilə bağlı söylənən fikirlər həddən artıq çoxdur. Əksər ölkənin kitab mağazalarında yerini almış bu kitab türk mətbuatında da müzakirə predmeti olmuş, maraqlı intibalar doğurmuşdur. Halil İbrahim Yıldız adlı oxucu yazır: "Yazıçı kitabında çoxlu pul qazanmaq üçün təbiətdən istifadə edib ağacların kəsildiyindən, zövq almaq üçün heyvanların ovlandığından, tamaşaçı, müştəri yığmaq üçün bir qurd ailəsinin necə məhv edildiyindən bəhs edən bir əsər yazmışdır. Xüsusən də, canavarlarla bağlı hissələr Cek Londonun "Bəyaz dişi"ini xatırladır və onun kimi təsiredicidir. Yazıçının dediyi kimi təbiət gec-tez ona edilə zülmün intiqamını alacaq".

Hüseynbala Mirələmovun "Cəza" əsəri istər yazıldığı illərdə, istərsə də indiki zamanda aktuallığını qoruyur. İnsan oğlu var olduqca, bitmək-tükənmək bilməyən ehtiyacları, özünü hamıdan yüksəkdə görən ədası olduqca təbiət bundan təsirlənəcək, məhvə doğru sürüklənəcək. Oturduğumuz budağı kəs mahir olan bizlər əməlimizin nəticəsini gördükdə isə çox gec olacaq. Bu səbəbdən də yaşadığımız dünyaya dəyər verək, ana təbiəti olduğu kimi, dəyişmədən sevək və dəyərləndirək. O zaman daha əmin-amanlıq içərisində bir həyat sürəcəyimiz mütləqdir. Əks təqdirdə isə "cəza"ların taleyimizə hakim kəsilməsi qaçılmaz olacaq. "Cəza" əsərinin aşıladığı ən ibrətamiz nəticə budur.